# Bayraq sevdalısı şəhidim

***Şəhid Məmmədov Yasin İman oğlunun əziz xatirəsinə***

**Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış II Qarabağ Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun göstərdiyi şücaət, mərdlik xalqımıza tarixə qızıl hərflərlə həkk olunan zəfər qazandırdı. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən savaş tarixi məhz şəhidlərimizin adı ilə bağlıdır. Şəhidimiz - Yasin Məmmədov Azərbaycanın ərazi bütövlüyü, şərəf və ləyaqəti uğrunda canından keçərək müqəddəs şəhidlik zirvəsinə ucalanlardandır.**

Yasin İman oğlu Məmmədov 1998-ci il may ayının 3-də Gədəbəy rayonunun Ağamalı (Çanaqçı) kəndində Məmmədovlar ailəsinin gələcək arzularının mərkəzində yer alacaq və o ailəyə daima qürur, fəxarət gətirəcək bir körpə dünyaya gəlir. O körpə ki, hələ bilmirdi onu həyatın hansı sərt sınaqları gözləyir. O körpə ki, həyatın enişli-yoxuşlu yollarından keçərək, Vətəninin bütövlüyü uğrunda müqəddəs Şəhidlik zirvəsinə ucalacaqdı. Bəli, bu, xalqın qəhrəmanlıq dastanını, azadlığını canı ilə qazanıb, qanı ilə yazan şəhidimiz Yasin İman oğlu Məmmədovdur. Onu da qeyd edim ki, ailənin birinci övladının adının Vətən adlandırılması təsadüfi deyildi. Bu hiss Yasinin valideynlərinin vətənə, millətinə məhəbbətindən, sevgisindən irəli gəlirdi. Məhz Yasin belə bir vətənpərvər ailədə dünyaya göz açmışdır. Yasin ailənin üçüncü övladı - yeni sonbeşiyi idi. Deyirlər ki, ailənin sonbeşiyi sevimli, əziz olur. Yasin də adının mənası kimi ailənin diqqətli, aktiv, şən və sevimli övladı idi. 2004-cü ildə Ağamalı (Çanaqçı) kənd orta məktəbinin birinci sinfinə gedir. Yasin dərslərində də çox aktiv, bacarıqlı və diqqətli olaraq müəllimlərinin etimadını qazanır. Qardaşı Vətənin dediklərindən məlum olur ki, Yasinin Azərbaycanın üçrəngli bayrağına böyük sevgisi olub. Bayraq Yasin üçün həyat amalı, yaşam fəlsəfəsi idi. Yasin bayrağı qürur və varlığının təcəssümü hesab edirdi. Bayrağa sevgi onun ürəyində uşaqlıq illərindən baş qaldırmışdı. Hətta uşaqlıqdan bayrağın müxtəlif formada şəkillərini qəzet və jurnallardan kəsib yığardı. Rəsm dərslərində ən çox çəkdiyi şəkillər Bayrağın təsviri olurdu. Hələ orta məktəbdə oxuyarkən müəllimi bayrağın insanın, xalqın və millətin həyatında önəmindən, vacibliyindən danışaraq qeyd edirdi ki, bu xalq dövlətinə, millətinə məxsus olan bayrağını asanlıqla yüksəklərə ucaltmayıb. Bu yolda zaman-zaman qanlar axıdılıb, igidlər, ərənlər Vətən yolunda şəhid olublar. Elə qırmızı rəngi şəhid qanından olan bayrağımız zirvələrdə dalğalanarkən şəhid adını da özü ilə birlikdə zirvələrə qaldırıb. Bu hisslərlə bayraq Yasinin həyatının ayrılmaz hissəsinə çevrildi. Bayrağımızı Şuşaya, Cıdır düzünə, işğaldan azad edəcəyimiz torpaqlara sancmaq həvəsi keçirdi Yasinin ürəyindən.





2015-ci ildə orta məktəbi əla və yaxşı qiymətlərlə başa vurur. Əlbəttə, hər bir gəncin orta məktəbdə hansısa bir sənətin dalınca getmək həvəsi olur. Nəqliyyat mühəndisliyi həvəsi ilə Yasin 2015-ci ildə Azərbaycan Texniki Universitetinin Nəqliyyat və logistika fakültəsinə daxil olur. Yasin 2019-cu ildə İnstitutu bitirib, Vətən qarşısında borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedib. Goranboy rayonunda hərbi xidmətdə olub. Hərbi xidmətdə yaxşı qulluq etdiyi üçün hərbi hissənin komandirindən bir neçə dəfə valideynlərinə təşəkkür məktubu gəlir.

2020-ci il sentyabr ayının 27-də İkinci Qarabağ Vətən müharibəsi başlayarkən hər bir Vətən övladı kimi Yasinin də ürəyində Vətənin bütövlüyü uğrunda vətənpərvərlik, mübarizlik hissləri baş qaldırır. Müddətli hərbi xidmətinin başa çatmasına baxmayaraq Yasin yenidən könüllü olaraq sevdiyi üçrəngli bayraq altında Azərbaycanın bütövlüyü uğrunda döyüşlərə qatılır. İşğaldan azad edilmiş torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalandıqca hər bir Vətən övladı kimi Yasin də qürur və böyük iftixar hissi duyur. Axı bu, Yasinin uşaqlıqdan arzusu idi. Yasin Məmmədov iştirak etdiyi döyüşlərdə komandirinin verdiyi tapşırıqları uğurla icra etmiş, düşmənin bir neçə canlı qüvvəsini məhv etmiş, yaralı yoldaşlarını döyüş meydanından çıxarmışdır.

Yasin oktyabrın 26-da Füzuli rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid olmamışdan bir gün qabaq ata-anası, bacı-qardaşı, əmisi ilə danışıb. Son sözü də bu olub ki, "Məndən nigaran qalmayın!". Bu cümlə ilə Yasin əzizləri ilə ömürlük vidalaşdı və əbədiyyətə qovuşdu.

Bu qəmli anlardan ayrılaraq üzümü Yasinin atası İman qardaşa, anası Nurilə xanıma və əzizlərinə tuturam: Yasin şəhidliyi ilə həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vicdanımız, fəxrimiz, ölməzliyimiz, örnəyimiz oldu. Yasin şəhidliyi ilə Azərbaycanın unudulmaz və yaddaqalan qələbə tarixində əbədi iz qoydu. Vətən və millət yolunda öz istəyi ilə canından keçərək, Yasin ən yüksək şərəfli zirvəni fəth etdi. Milyonlarla insanların dilindən düşməyən igid qəhrəmana çevrildi. İyirmi iki illik ömrünə mərdliyi, cəsarəti, qəhrəmanlığı, vətənpərvərliyi sığdıra bildi. Bütün şəhidlər kimi Yasin Məmmədov əməlləri ilə nəinki valideynlərinin, əzizlərinin, həm də milyonların qəlbinə, ruhuna köçdü. Sevdiyi üçrəngli Azərbaycan bayrağına bürünərək Vətəninin, xalqının başını uca etdi. Bu bayraq Yasinin ruhunun daşıyıcısı oldu. Yasin İman oğlu Məmmədov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında etdiyi xidmətlər dövlət tərəfindən qiymətləndirilərək, ölümündən sonra, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir. Yasin İman oğlu Məmmədov ən ali müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələrək Azərbaycan xalqının qəlbində daima yaşayacaqdır.

Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən bütün Şəhidlərimiz hər zaman hörmətə layiqdirlər. Haqqınız ödənməz, igid Şəhidlərimiz! Məkanınız cənnət, ruhunuz şad olsun!

**Zəminə Məhəmməd qızı Əsgərova,**
**AMEA A.A.Bakıxanov adına**
**Tarix İnstitutunun elmi əməkdaşı,**
**tarix üzrə fəlsəfə doktoru**